

*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*


AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

5 SENTYABR 2019-cu il | CÜMƏ AXŞAMI | № 193 (6520) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLICA-NEWS.AZ


## Əminə Dilbazinin 100 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin dekabr ayında Azərbaycan xoreoqrafiya məktəbinin tanınmış nümayəndəsi, görkəmli rəqs ustası, respublikanın Xalq artisti Əminə Paşa qızı Dilbazinin anadan olmasının 100 illiyi tamam olur.

Əminə Dilbazi Azərbaycan rəqs sənətinin çoxəsrlik ənənələrinin qorunub yaşadılmasında müstəsna xidmətlər göstərmişdir. Sənətkar uzunmüddətli fəaliyyəti ərzində daim yüksək səhnə mədəniyyəti nümayiş etdirmiş, fitri istedadı və bənzərsiz ifaçılıq imkanları sayəsində xalq rəqslərinin qiymətli nümunələrinə yeni çalarlar qazandıraraq onları orijinal ifa tərzi ilə xeyli zənginləşdirmişdir. Rəngarəng repertuarında, eyni zamanda, dünya xalqlarının rəqslərinə geniş yer ayıran Əminə Dilbazinin mötəbər beynəlxalq müsabiqə və festivallardakı uğurlu çıxışları Azərbaycan incəsənətinin çoxsaylı nailiyyətləri sırasındadır. O, kinofilmlərdə, teatr tamaşaları və opera əsərlərində rəqslərə yüksək məharətlə quruluş vermiş, eləcə də professional rəqs qruplarının bədii rəhbəri kimi tanınmışdır. Əminə Dilbazinin, həmçinin xoreoqrafiya sənətinin incəliklərinin gənc nəslə öyrədilməsi istiqamətində fəaliyyəti təqdirəlayiqdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan incəsənətinin inkişafı və təbliği işinə dəyərli töhfələr vermiş Xalq artisti Əminə Dilbazinin anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Xalq artisti Əminə Dilbazinin 100 illik yubileyi ilə əlaqədar tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 sentyabr 2019-cu il.**

## R.R.Məmmədovun "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rövşən Raqif oğlu Məmmədov "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 sentyabr 2019-cu il.**

## R.R.Məmmədovun "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rövşən Raqif oğlu Məmmədov "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 sentyabr 2019-cu il.**

# Azərbaycanın xarici siyasəti tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlığa əsaslanır

**Azərbaycan hazırda beynəlxalq müstəvidə dünya birliyini düşündürən ən mühüm problemlərin müzakirə olunduğu mərkəzlərdən biridir. Çünki ölkəmizin siyasəti çox açıqdır, xoş niyyətlidir, şəffafdır və bu siyasət ölkələri birləşdirməyə, qarşılıqlı inkişafa, maraqları ödəməyə, şəffaf münasibətlərə, bir-birinin daxili işlərinə qarışmamağa hesablanıb, ayırmağa yox. Bu ilin mart ayında 55 ölkədən 500-dən çox nümayəndənin qatıldığı VII Qlobal Bakı Forumunun paytaxtımızda keçirilməsi də bunun təsdiqidir. Dövlət başçısı cənab İlham Əliyev ölkənin xarici siyasətinin prioritetləri və prinsipial mövqeyi, dünyada, regionda dəyişən və sonu bilinməyən vəziyyətdə fəaliyyət barədə demişdir ki, bizim xarici siyasətimiz əsas etibarilə sabit, proqnozlaşdırıla bilən və müstəqildir. Bu siyasət milli maraqlarımıza əsaslanır. Tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə regionumuzda və daha geniş coğrafiyada təhlükəsizlik, sabitlik istiqamətində ölkələrlə yaxın əlaqələrin qurulması Azərbaycanın prioritetlərindən biridir. Biz ənənəvi tərəfdaşlarımızla əlaqələrimizi gücləndirməyə, yeni dostlar qazanmağa, mehriban münasibətlərə müvəffəq olmuşuq.**

Bu baxımdan 2018-ci ildə Bakıda keçirilmiş Qoşulmama Hərəkatının "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusundakı konfransında Prezident İlham Əliyevin vurğuladığı bir fikir olduqca maraqlı və əhəmiyyətlidir. Dövlət başçısı ifadə edib: "Biz bir-birimizi dəstəkləməliyik. Qarşımızda, demək olar ki, oxşar çağırışlar, problemlər dayanır. Keçmişimiz də müəyyən dərəcədə oxşardır. Hamımız öz həyatımızı, müstəqil həyat sürməyi arzulayırıq. Biz hamımız istəmirik ki, kimsə bizdən nə etməyi tələb etsin, işlərimizə müdaxilə etsin, bizə diktə etsin. Bunun üçün biz güclü olmalıyıq. Biz yalnız birlikdə olduqda güclü ola bilərik".

Təhlillərə görə, bu fikirlər indiki mərhələdə geosiyasi mühitdə cərəyan edən hadisələr və yeni dünya nizamının formalaşması zərurəti işığında çox aktual görünür. Siyasi liderlər qlobal səviyyədə geosiyasi ziddiyyətlərin və onların fonunda dünya miqyasında xaosun getdikcə daha da dərinləşdiyini vurğulayırlar. Yeni dünya nizamının formalaşmasına bu, təbii ki, ciddi mənfi təsir göstərir. Belə bir şəraitdə beynəlxalq səviyyədə yeni nizamın yaradılmasına yardım edə biləcək hər bir təşəbbüs qiymətlidir.

Bu il oktyabrın 25-26-da Bakıda keçirilməsi nəzərdə tutulan Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşü həmin səbəbdən son dərəcə əhəmiyyətli hesab edilir. Azərbaycanın belə bir nüfuzlu təşkilata sədrlik etməyə başlaması, əlbəttə, bütün sivilizasiyalı bəşəriyyət üçün əlavə fürsətdir. Şübhə yoxdur ki, Bakı hər bir ölkə üçün aktual olan məsələlərin müzakirəsinə üstünlük verəcək. Dünyanın indiki qarışıq dövründə beynəlxalq hüquq normalarına uyğun fəaliyyət göstərməyin təşviq edilməsi prinsipial olaraq faydalıdır. Konkret desək, Azərbaycan üçün aktual olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllində yeni imkanlar yaranmaqdadır. Əlbəttə, Bakı bu şansdan maksimum dərəcədə yararlanmağa çalışacaq.



Bundan başqa, Azərbaycanın bu hərəkata sədrlik etməsi, ümumiyyətlə, Cənubi Qafqaz üçün faydalıdır. Azərbaycan regionun lideri olmaqla yanaşı, həm də qarşılıqlı faydalı kooperasiyanın müxtəlif formatlarına əsaslanan fəaliyyəti ilə seçilir. Deməli, Qoşulmama Hərəkatı çərçivəsində Bakının imkanları daha da genişlənəcək.

Məlumat üçün bildirək ki, Azərbaycan 2011-ci ildən Qoşulmama Hərəkatının üzvüdür. 2019-2021-ci illərdə bu təşkilata sədrlik edəcək. Prezident İlham Əliyevin 2019-cu il 11 fevral tarixli Sərəncamında təşkilatın Azərbaycana verdiyi xarici siyasət dividendləri konkret ifadə edilib. Sərəncamda vurğulanıb ki, Azərbaycanın Qoşulmama Hərəkatında iştirakı onun beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlıq proseslərinə daha fəal cəlb edilməsinə geniş imkanlar açıb. Eyni zamanda, Azərbaycanın müxtəlif dövlətlərlə, o cümlədən Latın Amerikası, Asiya və Afrika ölkələrinin çoxu ilə ikitərəfli və çoxtərəfli münasibətlərinin inkişafı üçün əlverişli şərait formalaşıb.

Bütün bunlarla yanaşı, Qoşulmama Hərəkatı Azərbaycan üçün iki miqyasda - regional və qlobal səviyyədə geosiyasi proseslərə daha aktiv təsir etmək imkanı yaradır. Regional səviyyədə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində meydana gəlmiş qanlı münaqişənin ədalətli, beynəlxalq hüquq prinsipləri çərçivəsində aradan qaldırılması üçün fəaliyyət meydanı genişlənir. Dünyanın 120 ölkəsi təcavüzkarın qarşısının alınması məsələsində həmrəy olursa, bu, ciddi hadisədir.

Məsələ yalnız söz deməklə məhdudlaşmır, onun həyata keçməsi üçün də müəyyən mexanizmlər mövcuddur. Qoşulmama Hərəkətı bu aspektdə böyük dövlətlərə də müraciətlər hazırlaya bilər. Məlumdur ki, artıq Qoşulmama Hərəkatının nazirləri bir çağırış ediblər. Onlar çağırışda BMT Nizamnaməsində göstərilmiş güc tətbiq etməmə prinsipinin əhəmiyyətini təsdiq ediblər. Bu əsasda münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllinin zəruriliyini vurğulayıblar. Təbii ki, Yer kürəsi əhalisinin təqribən 55 faizinin yaşadığı 120 ölkənin etdiyi bu çağırış, indiyə qədər bir çox nüfuzlu beynəlxalq təşkilatların qəbul etdiyi sənəd və qətnamələr kimi ciddi siyasi və geosiyasi əhəmiyyətə malidir.

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

*M.Zaxarova:*

## Dağlıq Qarabağ münaqişəsinə dair bəyanatlar bu münaqişənin nizamlanmasında irəliləyişə nail olmağa şərait yaratmalıdır

**Dağlıq Qarabağ münaqişəsinə dair bəyanatlar bu münaqişənin nizamlanması yolunda sürətli irəliləyişə şərait yaratmalıdır.**

AZƏRTAC xəbər verir ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu fikri Moskvada keçirdiyi brifinqdə Ermənistanın baş naziri Nikol Paşinyanın son bəyanatları barədə sualın cavabında səsləndirib.

O bildirib ki, münaqişə tərəflərinin bəyanatları münaqişənin dinc yolla nizamlanmasına yönəlmiş ümumi səylərə uyğun olmalıdır.

Rusiya XİN nümayəndəsi deyib: "Danışıqlar prosesində "nifaq alması"na çevrilən və əlavə suallar doğuran bəyanatlardan sonra əvvəlki mövqeyə qayıtmaq həmişə çox mürəkkəb məsələdir və bu, amanabənd danışıqlar prosesinin tarazlığını poza bilər. Təəssüf ki, biz müxtəlif səviyyələrdə müxtəlif tərəflərin bu cür bəyanatlarını çox eşitmişik və bu cür bəyanatlarla yenə üzləşirik".

M.Zaxarova deyib: "Biz daxili siyasi prosesə hörmət bəsləyirik və başa düşürük ki, siyasi quruluşun demokratik modelində insanlar istənilən mövzuda fikir söyləmək, lakin eyni zamanda müvafiq siyasi ilkin şərait formalaşdırmaq hüququna malikdirlər. Çox istərdik ki, bütün tərəflər bir başlıca şərtə əməl etsinlər - bütün resurslar münaqişənin tezliklə və dinc yolla tənzimlənməsinə yönəldilməlidir. Bu, mürəkkəb və uzun prosesdir. Düşünürəm ki, sürətlə irəliləməyin zəruri olmasını hamı başa düşür və bunun üçün bəyanatlar həmin əsas hədəfə müvafiq olmalı və ona şərait yaratmalıdır".

**AZƏRTAC**

*Müdafiə Nazirliyi:*

## Monitorinq insidentsiz başa çatıb

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 4-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində keçirilən monitorinq insidentsiz başa çatıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Oqnyen Yoviç, Mixail Olaru və Martin Şuster aparıblar.

**AZƏRTAC**

## Türk Şurasının Bakı Zirvə görüşünə hazırlıq məsələləri müzakirə olunub

**Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov sentyabrın 4-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Azərbaycanın Türk Şurasının banilərindən biri olduğunu vurğulayaraq, hazırda da bu qurumun digər beynəlxalq təşkilatlarla əməkdaşlığının genişləndirilməsi üçün əməli dəstəyin davam etdirildiyini bildirib. Nazir ölkəmizin Türk Şurasının fəaliyyətinə önəmli töhfə verdiyini qeyd edib, cari ilin oktyabr ayında Bakıda baş tutacaq Türk Şurası Zirvə toplantısının keçirilməsi ilə əlaqədar müvafiq hazırlıq tədbirlərinin görüldüyünü diqqətə çatdırıb.

Bağdad Amreyev, öz növbəsində, Azərbaycanın Türk Şurasının daha da inkişaf etdirilməsi istiqamətində səylərini yüksək dəyərləndirdiyini vurğulayıb.

Görüşdə tərəflər Türk Şurasının qarşıdan gələn Bakı Zirvə görüşünə hazırlıq məsələləri ilə bağlı ətraflı müzakirələr aparıblar.

Sonda Xarici İşlər naziri Elmar Məmmədyarov Türk Şurasının Baş katibi Bağdad Amreyevə, habelə onun müavinləri Qismət Gözəlova və Ömer Kocamana "Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyi" ilə əlaqədar yubiley medallarını təqdim edib.

**AZƏRTAC**

## Azərbaycan ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin ticarət dövriyyəsi 32 faiz artıb

**Azərbaycan ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin ticarət dövriyyəsi yeddi ayda 32 faiz artıb.**

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, İqtisadiyyat naziri Şahin Mustafayev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) baş katibi Bağdad Amreyevlə görüşüb.

Nazir Azərbaycanın TDƏŞ üzvü olan ölkələrlə əlaqələrinin yüksək səviyyədə olduğunu, əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdiyini qeyd edib. Ölkəmizin TDƏŞ-ə üzv ölkələrlə ticarət əlaqələrinin genişləndiyini diqqətə çatdıran İqtisadiyyat naziri 2018-ci ildə ticarət dövriyyəsinin 29 faiz, bu ilin yanvar-iyul ayı ərzində isə 32 faiz artdığını bildirib. Qeyd olunub ki, Azərbaycan türkdilli dövlətlərin tədbirlərində fəal iştirak edir, üzv ölkələr arasında iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verir.

İqtisadiyyat naziri Azərbaycanın ixracın təşviqi sahəsində tətbiq etdiyi mexanizmlər, ölkəmizin bir sıra xarici ölkələrdə uğurla fəaliyyət göstərən ticarət evləri barədə məlumat verərək, Qazaxıstanın Nur-Sultan şəhərində də Azərbaycan Ticarət Evinin açılacağını diqqətə çatdırıb.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyev TDƏŞ-in üzv ölkələr arasında əməkdaşlığın genişləndirilməsi baxımından önəmli platforma olduğunu qeyd edib, Azərbaycanın bu təşkilatda fəal iştirakını vurğulayıb.

Görüşdə TDƏŞ çərçivəsində iqtisadi əməkdaşlığın hazırkı vəziyyəti və genişləndirilməsi imkanları, Sənaye-Ticarət Palatasının, Birgə İnvestisiya Fondunun yaradılması, TDƏŞ-in 2019-cu ilin oktyabr ayında Azərbaycanda keçiriləcək VII Zirvə Toplantısı və bu tədbir çərçivəsində biznes-forumun təşkili barədə müzakirələr aparılıb. Qeyd olunub ki, TDƏŞ VII Zirvə Toplantısı üzv ölkələrin iqtisadi əlaqələrinin şaxələndirilməsi, kiçik və orta sahibkarlıq subyektləri arasında əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açacaq.

**AZƏRTAC**

# Rusiyanın Təhlükəsizlik Şurasının katibi ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





**Azərbaycanda səfərdə olan Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 4-də Fəxri xiyabana gələrək müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən nümayəndə heyəti Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

**AZƏRTAC**

# Dövlət Sərhəd Xidmətinin rəisi Türkiyə nümayəndə heyətini qəbul etmişdir



**Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti ilə Türkiyə Respublikasının müvafiq qurumları arasında ikitərəfli əlaqələr uğurla davam etdirilir.**

Birgə əməkdaşlıq fəaliyyətləri çərçivəsində Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin rəisi general-leytenant Əfqan Nağıyevin dəvəti ilə cari ilin 2 sentyabr tarixində Türkiyə Respublikası Daxili İşlər Nazirliyi Sahil Mühafizəsinin komandanı kontr-admiral Ahmet Kendirin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfərə gəlmişdir.

Sentyabr ayının 3-də Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev tərəfindən Türkiyə nümayəndə heyəti qəbul edilmişdir. Görüşdə ikitərəfli əlaqələrin vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmış, sərhəd təhlükəsizliyinin təmin edilməsi, transsərhəd cinayətkarlığın təzahürləri ilə mübarizə üzrə sahil mühafizəsi sahəsində həyata keçirilən tədbirlər müzakirə olunmuş, birgə əməkdaşlıq və qarşılıqlı əlaqələrin, təcrübə mübadiləsinin davam etdirilməsinin vacibliyi qeyd edilmişdir.

Səfər çərçivəsində qonaqlar DSX Sahil Mühafizəsində dəniz sərhədlərinin mühafizəsinin təşkili vəziyyəti və xüsusiyyətləri ilə tanış olmuş, aidiyyəti bölmələrin xidməti-döyüş fəaliyyətinin müasir tələblərə uyğun aparılması məqsədilə istifadə olunan qabaqcıl sistem və texniki vasitələri nəzərdən keçirmişlər.

Azərbaycan və Türkiyə nümayəndələri müsbət təcrübə mübadiləsi aparmış, gələcək əlaqələrin perspektivlərini müzakirə etmiş və sahil mühafizəsi bölmələri arasında praktiki əməkdaşlıq tədbirlərinin davam etdirilməsinə dair razılıq əldə etmişlər. Görüşün nəticələrinə dair nümayəndə heyərtlərinin İşçi Protokolu imzalanmışdır.

Qonaqlar səfər çərçivəsində Şəhidlər xiyabanını və şəhid türk əsgərlərinin şərəfinə ucaldılmış abidəni ziyarət etmiş, həmçinin "Heydər Əliyev Mərkəzi", Bakı şəhərinin mədəni-tarixi abidələri və Dövlət Sərhəd Xidmətinin Aparatında yerləşən "Siyasi repressiya qurbanları" muzeyi" ilə tanış olmuşlar.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

# Ali məktəblərə qəbul imtahanlarında tələbə adını qazanmış məzunlarla görüş





**Sumqayıt şəhərində yerləşən 28 May Mədəniyyət Evində tələbə adını qazanmış məzunlarla görüş keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə tələbə adını qazanan gəncləri təbrik edən Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov ulu öndər Heydər Əliyevin təhsilin hər bir xalqın gələcəyi olması barədə fikrini xatırladıb. Vurğulayıb ki, ölkəmizdə təhsilin inkişafı Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Son illər təhsilin inkişafına xidmət göstərən 16 dövlət proqramı qəbul edilib. Bu proqramlar məktəbəqədər təhsil, texniki peşə, orta ümumtəhsil və ali məktəblərin inkişafını nəzərdə tutan dövlət əhəmiyyətli fəaliyyət istiqamətlərini müəyyənləşdirir. Bu gün Qubadlı rayonunda da bu işlər uğurla davam etdirilir. Rayonda 32 ümumtəhsil məktəbi fəaliyyət göstərir ki, onlardan 18-i yeni tikilib, 14-ü əsaslı təmir olunub. Eyni zamanda, 2018/2019-cu tədris ilində Abşeron rayonu "St.Sumqayıt" ərazisində yerləşən Qubadlı rayon Hal, Dəmirçilər kənd tam orta və şəhər 4 nömrəli tam orta məktəbləri yeni binalarda fəaliyyətə başlayıb, 2019-2020-ci tədris ilində isə Sumqayıt şəhər 12-ci mikrorayon ərazisində məcburi köçkünlər üçün tikilmiş yeni şəhərcikdə Kavdadıq və Əliquluuşağı kənd tam orta məktəbləri üçün yeni bina tikilərək şagird və müəllim kollektivinin istifadəsinə veriləcək. Bu il rayonumuzun Çaytumas kənd məktəb liseyi və Xocahan kənd tam orta məktəbləri qəbul imtahanlarında 100 faiz nəticə göstərib. Çaytumas məktəb-liseyində 34 məzunun hamısı, Xocahan tam orta məktəbində isə ali məktəblərə sənəd verən 16 məzunun hamısı tələbə adını qazanıb. Cari ildə 442 məzundan 386 nəfəri (87,3 faiz) sənəd verib və onlardan 297-si ali məktəblərə qəbul olunub. Qəbul imtahanlarında iştirak edən 42 məzun 500-600 arası, 12 məzun isə 600-700 arası bal toplayıb. Bu il rayon üzrə qəbul 77 faizdir. Bütün bunlar Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın həyata keçirdiyi uğurlu təhsil siyasətinin nəticəsidir.

Sonra Qubadlı Rayon Təhsil Şöbəsinin müdiri Fuad Bədəlov, valideynlər, məzunlar və digərləri gənclərlə görüşün təşkilinə, göstərilən diqqət və qayğıya görə ölkə başçısına və rayon rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Sonda yüksək bal toplamış gənclərə Qubadlı Rayon İcra Hakimiyyəti tərəfindən mükafatlar verilib.

**AZƏRTAC**

# AZƏRTAC və İsrailin Tazpit agentliyi Əməkdaşlıq barədə Anlaşma Memorandumu imzalayıblar

## *Amotz Ayal: Bu sənəd Tazpit-in xarici xəbər agentliyi ilə imzaladığı ilk rəsmi əməkdaşlıq müqaviləsidir*



**AZƏRTAC və İsrailin Tazpit xəbər agentliyi informasiya mübadiləsi və media texnologiyaları sahəsində əməkdaşlığa başlayır.**

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov ilə Tazpit agentliyinin təsisçisi və icraçı direktoru Amotz Ayal arasında Bakıda keçirilən görüşdə əlaqələrin qurulması və perspektivləri ətrafında geniş müzakirələr aparılıb. Azərbaycan və İsrail arasında sıx mədəni, tarixi əlaqələrin olduğunu deyən Aslan Aslanov ölkələrimizin hazırda bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyini bildirib. Qeyd olunub ki, bütün bunlar informasiya sahəsində də tərəfdaşlıq üçün böyük imkanlar açır. İlkin mənbədən məlumat mübadiləsinin iki ölkə arasında bütün istiqamətlər üzrə münasibətlərin daha da inkişafına töhfə verəcəyinə əminlik ifadə olunub.

AZƏRTAC ilə tərəfdaşlığa böyük önəm verdiklərini vurğulayan Tazpit agentliyinin icraçı direktoru Amotz Ayal bu əməkdaşlığın ölkələrimizi bir-birinə daha yaxından tanıtmaq baxımından faydalı olacağını deyib. "Tazpit İsrailin ilk xəbər agentliyi olaraq ölkə həyatının bütün sahələri üzrə informasiya yayır. Yeni yaranmış media qurumu olmasına baxmayaraq, media texnologiyalarını fəal şəkildə tətbiq edir", - deyə Amotz Ayal bildirib.

Sonra Əməkdaşlıq barədə Anlaşma Memorandumunun imzalanma mərasimi olub. AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov və Tazpit agentliyinin təsisçisi və icraçı direktoru Amotz Ayal tərəfindən imzalanan sənəd xəbər, foto və video materialların mübadiləsini, kadrların hazırlığı və media texnologiyaları sahəsində əməkdaşlığı nəzərdə tutur. Razılaşmaya əsasən, agentliklər gündəlik xəbər mübadiləsi həyata keçirəcəklər.

Amotz Ayal AZƏRTAC-ın jurnalistləri ilə görüşdə bildirib ki, bu gün imzalanan sənəd Tazpit-in xarici xəbər agentliyi ilə ilk rəsmi əməkdaşlıq müqaviləsidir. O, ilk tərəfdaş kimi AZƏRTAC-ı seçmələrinin təsadüfi olmadığını deyib. Qeyd edib ki, AZƏRTAC-ın yüzdən çox agentliyi ətrafında birləşdirən Dünya Xəbər Agentlikləri Konqresinə, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatına sədrlik etməsi, nüfuzlu xəbər agentlikləri ilə tərəfdaşlıq əlaqələri qurması bu seçimi şərtləndirən amillərdir. Əsasən də buna İsrail və Azərbaycan arasında münasibətlərin yüksək səviyyəsi öz təsirini göstərib.

Görüşdə, həmçinin Azərbaycanda multikultural mühitdən, Azərbaycan və yəhudi xalqlarının burada tarixən sülh şəraitində yaşamasından, müasir media və jurnalistikanın inkişafı tendensiyalarından danışılıb.






**AZƏRTAC**

# Mədəniyyət və ədəbiyyat xadimlərinə dövlət təltifləri təqdim olunub



**Sentyabrın 4-də ölkə başçısının müvafiq sərəncamları ilə təltif edilmiş bir qrup mədəniyyət və ədəbiyyat xadiminə mükafatların təqdim olunması mərasimi keçirilib.**

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Əbülfəs Qarayev mərasimdə çıxış edərək ölkəmizdə mədəniyyət və incəsənətin inkişafında xidmətləri olan şəxslərə dövlət tərəfindən yüksək diqqət və qayğı göstərilməsi ənənəsinin ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib.

Qeyd edib ki, Ümummilli Liderin bu müdrik yanaşması Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir: "İnsanın əməyinin qiymətləndirilməsi onun fəaliyyətini stimullaşdırır, yaradıcılıq prosesinə müsbət təsir göstərir. Dövlətimiz yaradıcı insanların işini diqqət mərkəzində saxlayır, əsərlərinin təbliğinə dəstək verir. Ölkə başçısının sərəncamları ilə bu il də görkəmli ədəbiyyat və incəsənət xadimlərinin yubileyləri geniş şəkildə qeyd olunur, adları əbədiləşdirilir, əsərləri çap olunur. Bütün bunlar ölkə rəhbərliyinin mədəniyyətə böyük sevgisinin göstəricisidir".

Nazir bu gün təltif edilən mədəniyyət və ədəbiyyat xadimlərinin Azərbaycanın inkişafına mühüm töhfələr verən insanlar olduğunu qeyd edib. Bildirib ki, Xalq artisti Roza Cəlilovanın Azərbaycan peşəkar rəqs sənətinin inkişafında özünəməxsus yeri var. Roza xanım bu gün ömrünün müdrik çağında da ruhən bağlı olduğu xoreoqrafiya sənətinin gələcəyi üçün çalışır.

Nazir vurğulayıb ki, Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla görkəmli ədəbiyyatşünas, dilçi alim olmaqla yanaşı, oxucuların rəğbətlə qarşıladığı yazıçı-dramaturqdur. Onun əsərləri ölkəmizin hüdudlarından kənarda da böyük maraqla oxunur. Kamal Abdulla Azərbaycanın malik olduğu multikultural dəyərlərin dünyada təbliğ olunmasında böyük xidmətlər göstərir.

Əbülfəs Qarayev yazıçı, ssenarist Natiq Rəsulzadənin 40 ildən çoxdur ədəbi yaradıcılıqla məşğul olduğunu söyləyərək qeyd edib ki, müəllifin əsərləri bir çox dillərə tərcümə olunub, müxtəlif ölkələrdə işıq üzü görüb, nüfuzlu mükafatlara layiq görülüb. Natiq Rəsulzadənin ssenariləri əsasından çəkilən filmlər tamaşaçılar tərəfindən maraqla qarşılanır.

Nazir Azərbaycan Dövlət Tərcümə Mərkəzi İdarə heyətinin rəhbəri, yazıçı Afaq Məsudun bədii yaradıcılığından və fəaliyyətindən söz açıb. Bildirib ki, A.Məsud ədəbiyyatımıza və ədəbiyyatşünaslığımıza dəyərli əsərlər bəxş edən görkəmli ziyalılar nəslinin davamçısıdır. Onun rəhbərlik etdiyi Dövlət Tərcümə Mərkəzi tərəfindən Azərbaycan ədəbiyyatının dəyərli nümunələrinin müxtəlif xalqların dillərinə, eləcə də bir sıra dünya müəlliflərinin əsərlərinin dilimizə tərcümə edilərək oxucularımıza çatdırılması istiqamətində təqdirəlayiq işlər görülür. Eyni zamanda, Afaq Məsud çağdaş Azərbaycan nəsrinin zənginləşməsinə sanballı töhfələr verir.

Görkəmli şair, ssenarist Ramiz Rövşənin Azərbaycan oxucusunun ən çox sevdiyi qələm sahiblərindən olduğunu deyən nazir onun C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında fəaliyyətini yüksək qiymətləndirib. Ramiz Rövşənin ssenariləri üzrə çəkilən ekran əsərlərinin Azərbaycan kinematoqrafiyasının qiymətli nümunələri olduğu diqqətə çatdırılıb.

Sonra Əbülfəs Qarayev dövlət təltiflərini mədəniyyət xadimlərinə təqdim edib.

Təltif olunanlar Azərbaycanın mədəniyyət və ədəbiyyat xadimlərinə göstərdiyi yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**AZƏRTAC**

# SOCAR AQŞ "Qərbi Abşeron" yatağında qazma layihələrini uğurla həyata keçirir

**Kompleks qazma və quyu xidmətləri göstərən SOCAR AQŞ bu günlərdə "Qərbi Abşeron" yatağı 10 saylı stasionar dəniz özülündən faktiki dərinliyi 815 metr olan 65 nömrəli quyunun tikintisi işlərini təhlükəsiz, keyfiyyətlə və ətraf mühitə heç bir ziyan vurmadan uğurla yekunlaşdırıb.**

Müəssisə, eyni zamanda 10 saylı özüldən layihə dərinliyi 780 metr olan 18 nömrəli quyuda qazma işlərinə start verib. 18 nömrəli quyunun Qırmaki altı Lay Dəsti (QAD) horizontuna qazılması planlaşdırılır.

Qeyd edək ki, müəssisə 10 saylı stasionar dəniz özülündə yeni nəsil qazma avadanlığı olan "Drilmec HH 300" vasitəsilə quyuların qazılmasını həyata keçirir.

Dəyərlərinə daim sadiq qalan SOCAR AQŞ həmişə olduğu kimi bu və növbəti quyuları da sağlamlıq, texniki təhlükəsizlik və ətraf mühitin mühafizəsi tələblərinə uyğun, heç bir mürəkkəbləşməyə yol vermədən, nəzərdə tutulan vaxtdan tez və iqtisadi səmərəli şəkildə tikərək sifarişçiyə təhvil verəcək. Sifarişçi SOCAR-ın "Azneft" İstehsalat Birliyidir.

SOCAR AQŞ MMC inteqrə olunmuş qazma və quyu xidmətləri göstərən birgə müəssisə kimi SOCAR və Abşeron Qazma Şirkəti tərəfindən 2007-ci ildə təsis edilmişdir. Müəssisənin əsas fəaliyyəti



quyuların layihələndirilməsi və planlaşdırılması, neft və qaz quyularının qazılması, maili istiqamətləndirilmiş quyuların qazılması, horizontal quyuların qazılması, quyuların mənimsənilməsi, quyuların əsaslı təmiri, yan lülələrin qazılması və çoxşaxəli quyuların qazılması ilə bağlı iş və xidmətlərin təqdim edilməsindən ibarətdir.

Hazırda SOCAR AQŞ dayaz sulu "Günəşli" yatağında yerləşən 7 və 11 saylı, "Qərbi Abşeron" yatağının 10 saylı və "Bulla" yatağında 6 saylı Dəniz Stasionar Özüllərində (DSÖ) qazma işləri aparır.

Müəssisə 2009-cu ildən etibarən İADC təşkilatının üzvüdür. SOCAR AQŞ, Dənizdə Neft və Qaz Quyularının Qazılması və Quyu Təmiri Xidmətlərinin Göstərilməsi, Kəmər Endirmə Xidmətləri, Atqıya Qarşı Avadanlıqların və Quyuağzı Avadanlıqların Təmiri və Sınağı Xidmətlərinin göstərilməsi üçün İSO 9001:2015; İSO 14001:2015 və İSO 45001:2018 beynəlxalq standartlarının tələblərinə əsasən sertifikatlaşdırılmışdır.

2017-ci ildə SOCAR AQŞ dənizdə neft və qaz quyularının qazılması və quyu təmiri xidmətlərinin göstərilməsi sahəsi üzrə APİ Spec Q2 Keyfiyyət İdarəetmə Sisteminin tələblərinə əsasən sertifikatlaşdırılmışdır.

Müəssisənin səhmdarları SOCAR, Nobel Oil Services və Abşeron Qazma MMC-dir.

**Müşfiq MİRZƏ, "Respublika".**

# Ədliyyə Nazirliyinin tibb xidmətinə qulluğa qəbul olunan hərbi tibb fakültəsinin məzunları ilə görüş keçirilib





**Azərbaycan Prezidenti İlham Əliyevin ədliyyə orqanlarının inkişafı, o cümlədən penitensiar sistemin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq məhkumların və təqsirləndirilən şəxslərin sağlamlığının mühafizəsi, onlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi üzrə məqsədyönlü tədbirlər davam etdirilir. Bu sahədə beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıqda müsbət nəticələrə nail olunub və artıq bir çox dövlətlər Azərbaycan təcrübəsindən faydalanırlar.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, penitensiar sahədə fəaliyyətin müasirləşdirilməsi, həmçinin ədliyyə işçilərinin tibbi təminatının gücləndirilməsi məqsədilə Ədliyyə Nazirliyində yüksək ixtisaslı həkimlərə ehtiyac nəzərə alınaraq Nazirlər Kabinetinin sərəncamına əsasən Azərbaycan Tibb Universitetinin (ATU) hərbi tibb fakültəsinə 2009-cu ildən etibarən nazirlik üçün tələbə qəbulu həyata keçirilir. Nazirlik tərəfindən həmin tələbələrlə təhsil müddətində mütəmadi əlaqə saxlanılıb, onlara penitensiar və tibb xidmətlərində qulluq keçmənin xüsusiyyətləri aşılanıb, bu sahədə təcrübə keçməklə peşə vərdişlərinə yiyələnmələrinə hər cür şərait yaradılıb.

Ədliyyə Nazirliyi üçün hazırlanan ATU-nun hərbi tibb fakültəsinin xüsusi təhsil almış builki 15 məzunu nazirliyin sərəncamına göndərilib.

Ədliyyə naziri Fikrət Məmmədov ədliyyə orqanlarına qulluğa qəbul edilən gənc həkimləri qəbul edib.

Tədbirdən öncə Fəxri xiyabanda müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edən gənclər, dahi şəxsiyyətin abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsini ehtiramla yad ediblər.

Nazirlikdə keçirilmiş tədbirdə çıxış edən nazir F.Məmmədov Ulu Öndərin siyasi kursunu layiqincə davam və inkişaf etdirən Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı sosial-iqtisadi tərəqqisini, dünyada ən islahatçı dövlətlərdən olduğunu və bütün sahələrdə qazanılan yüksək nailiyyətləri vurğulayıb, Azərbaycan ədliyyəsinin inkişafı və müasirləşdirilməsi üzrə görülən işlər barədə məlumat verib, dövlətimizin gənclərin hərtərəfli inkişafına yüksək qayğısından bəhs edib.

Bildirib ki, ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinə uyğun olaraq ədliyyə orqanlarında gənclər geniş təmsil olunurlar. Onların işlə təminatı daim diqqətdə saxlanılaraq müasir İKT-lər tətbiq olunmaqla və vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə şəffaf seçimlər əsasında qulluğa qəbul edilirlər. Hazırda ədliyyə sistemində çalışan işçilərin təxminən yarısını gənclər təşkil edir və onlar ədliyyənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərirlər.

Eyni zamanda, ölkədə geniş vüsət alan könüllülük hərəkatının ədliyyə sahəsində təşviq olunaraq hazırda 600-dən çox ədliyyə könüllüsünün fəaliyyətə cəlb edildiyi bildirilib.

Penitensiar sistemdə və tibb xidmətində aparılan islahatlardan geniş söhbət açan nazir məzunlara dövlətçiliyə sədaqətlə xidmət etmələri, insanlara qayğılı münasibət göstərmələri, xidməti vəzifələrini layiqincə yerinə yetirmələri, etik davranış qaydalarına dönmədən əməl olunması barədə tapşırıqlarını verib, uğurlu fəaliyyət arzulayıb.

Çıxış edən məzunlar müstəqil Azərbaycanımızın gələcək tərəqqisi naminə əzmlə çalışacaqlarını, dövlət gənclər siyasətini uğurla davam etdirən ölkə başçısına layiqli yardımçı olacaqlarını vurğulayaraq, vəzifə borclarını məsuliyyətlə yerinə yetirəcəklərinə, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına söz veriblər.

Yeni təyinat alan həkim-zabitlər Azərbaycan Respublikasının dövlət bayrağı önündə təntənəli qaydada and içiblər.

**AZƏRTAC**



# Bakı Şəhər İcra Hakimiyyəti paytaxt sakinlərinə müraciət etmişdir

**Bakı Şəhər İcra Hakimiyyəti sahibkarlara, müəssisə və təşkilat rəhbərlərinə istifadələrində olan obyektlərin qarşısında yerləşən ərazilərdə mövcud yaşıllıqların günün tələbləri səviyyəsinə çatdırılmasını, yeni yaşıl guşələrin yaradılmasını və saxlanılmasını tövsiyə edir. Bu praktika dünyanın bir çox ölkələrində mövcuddur.**

Yaşıl guşələrin yaradılması və qorunması məqsədilə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı müvafiq Sərəncam imzalamışdır. Bildirilmişdir ki, ölkə rəhbərinin siyasəti nəticəsində Bakı şəhəri ciddi inkişaf nümayiş etdirmiş, şəhərin yaşıllaşdırılması sahəsində önəmli işlər görülmüşdür. Yaşıllaşdırma sahəsində uğurlar əldə etmiş şəhərlərin təcrübəsində sahibkarlar, idarə və müəssisə rəhbərləri tərəfindən ticarət və digər qeyri-yaşayış obyektlərinin qarşısında yaşıl guşələrin yaradılması və saxlanılması praktikası mövcuddur.

Bakı Şəhər İcra Hakimiyyətindən bildirilmişdir ki, paytaxtın yaşıllıq səviyyəsinin keyfiyyətcə daha yüksək səviyyəyə çatdırılması məqsədilə həyata keçirilən bu tədbirlər paytaxtın estetik görünüşünün yaxşılaşdırılmasına və keyfiyyətcə yeni səviyyəyə çıxmasına təkan verəcəkdir.

Qeyd etmək lazımdır ki, sözügedən sərəncam yaşıllaşdırılması dövlət vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulan ərazilərə şamil edilmir.

***Şəhərimizdə obyektlərin qarşısındakı yaşıl guşələr heç də hər yerdə günün tələblərinə cavab vermir.***

**İsrafil KƏRİMOV,**
**Bakı Şəhər İcra Hakimiyyəti**
**Mətbuat Xidmətinin rəhbəri.**

# Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması ilə bağlı keçirilən açıq heykəltəraşlıq müsabiqəsi başa çatıb

**Mədəniyyət Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və Heydər Əliyev Fondunun Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması ilə bağlı keçirdiyi açıq heykəltəraşlıq müsabiqəsi başa çatıb. Münsiflər heyətinin qərarı yaxın günlərdə ictimaiyyətə açıqlanacaq.**

Landşaft memarlığı, bağça-park və şəhər heykəltəraşlığı sahələrində işləyən pe-



şəkar heykəltəraşların qatıldığı müsabiqəyə ümumilikdə 26 layihə təqdim edilib. Ötən müddət ərzində təqdim olunan ərizə və eskizlər (maketlər) Heydər Əliyev Mərkəzində, eləcə də müsabiqənin elektron poçt ünvanında qəbul olunub.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Heydər Əliyev Mərkəzinin nümayəndəsi Zafiq Xəlilov deyib. Onun sözlərinə görə, müsabiqədə tanınmışlarla yanaşı, gənc rəssam-heykəltəraşlar və əcnəbi müəllif də iştirak edir. Müsabiqədə iştirak edənlər arasında Azərbaycanın məşhur heykəltəraşları - Xalq rəssamları Xanlar Əhmədov, Natiq Əliyev, Ömər Eldarov, Səlhab Məmmədov, Əməkdar rəssam Azad Əliyev, həmçinin Cəlil Qaryağdı da var. Azərbaycandan kənarda yaşayan tanınmış heykəltəraş Rahib Həsənov da müsabiqəyə layihə təqdim edib.

Müsabiqəyə Azərbaycanın bölgələrindən də (Gəncə şəhəri və Saatlı rayonu) heykəltəraşlar qoşulublar. "İctimaiyyətdə böyük maraq yaratdığına görə peşəkarlarla yanaşı, həvəskarlar da müsabiqəyə qatılıblar. Belə ki, ixtisasca hüquqşünas olan, həvəskar heykəltəraş İlkin Məmmədov layihə təqdim edənlər arasındadır.

Təqdim olunan eskizlərdə Hacı Zeynalabdin Tağıyevin faytonu, buxara papağı, ənənəvi libası, təsbehi, əsası, orden və medalları, bənnaçılıqdan başlayaraq tikinti ustası və təşkilatçısı kimi formalaşması, onu milyonçuya çevirən neft buruqları, təhsilə qayğısı əsas elementlər kimi göstərilir.

Təşkilat komitəsi verilmiş ərizə və eskizlər arasından bir qalib müəyyənləşdirəcək. Müsabiqə iştirakçılarının seçimi mövzuya uyğunluq, müəllif mülahizəsinin və icra edilmə səviyyəsinin peşəkarlığı, təqdim edilmiş kompozisiyanın materialının emal texnologiyasına uyğunluğu kimi meyarlar üzrə həyata keçirilir.

Heykəlin ucaldılması müəllifin və ya onun müvəkkili olan şəxsin bilavasitə müşahidəsi altında, müsabiqənin təşkilatçısı tərəfindən seçilmiş yerdə həyata keçiriləcək.



Hacı Zeynalabdin Tağıyevin heykəlinin "İçərişəhər" metrostansiyası yaxınlığındakı meydançada (İstiqlaliyyət küçəsi) ucaldılması nəzərdə tutulur.

Qeyd edək ki, müsabiqəyə ərizə və eskizlər bu ilin aprelin 25-dən iyunun 30-dək qəbul olunurdu. Müsabiqəyə olan maraq, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, akademik Ömər Eldarov və bir sıra heykəltəraşların müraciətləri nəzərə alınaraq müsabiqə avqustun 31-dək uzadılmışdı.

**AZƏRTAC**



# "Topladıqca qucaq-qucaq pambığı..."

**Torpaqlarımızı işğal edən düşmənlə bir neçə addımlıqda yaşayan, işləyən və mübarizə aparan füzulililər ölkədə həyata keçirilən mütərəqqi islahatları rayonun sosial-iqtisadi həyatına tətbiq etməklə kənd təsərrüfatı məhsullarının istehsalını artırırlar. Görülən işlər, həyata keçirilən tədbirlər əhalinin əhval-ruhiyyəsini yüksəldir, onları bütün sahələrdə uğurlar qazanmağa ruhlandırır.**

Prezident İlham Əliyevin pambıqçılığın yenidən inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıqlar füzulililərin üreyincə olub. İnsanlar qarşıya qoyulan vəzifələrin məsuliyyətini dərindən dərk edir, göstərilən qayğını, etimadı yüksək qiymətləndirirlər. Tapşırığın icrasını təmin etmək məqsədilə rayon icra hakimiyyətinin təşkilatçılığı ilə bütün qüvvələr səfərbər olunub, icra nümayəndələri və bələdiyyə orqanları, təsərrüfat işçiləri bu işə cəlb edilib.

Rayonda pambıqçılıqda yaxşı ənənə mövcuddur. Füzuli rayonunun pambıq tarlalarında məhsul yığımına hazırlıq başa çatdırılıb və fermerlər "ağ qızıl"ın tədarükünə başlayıblar. Tarlalarda bol məhsul yetişdirilib, aylardan bəri çəkilən zəhmət öz bəhrəsini verib, ilk gündən yüksək məhsuldarlıq əldə olunur.

Bu il 800 hektar sahədə çiyid səpini həyata keçirilib. Pambıq əkinlərinin 500 hektarı "P-Aqro" MMC, 300 hektarı isə "Azərpambıq" MMC ilə müqavilə əsasında becərilib. Yüksək məhsul əldə etmək üçün əkin sahələrində aqrotexniki becərmə qaydalarına ardıcıl və düzgün əməl olunub, cərgələrarası becərmələr, alaq otlarına və zərərvericilərə qarşı kimyəvi mübarizə tədbirləri vaxtında aparılıb, bitkilər tələbata uyğun optimal müddətdə mineral gübrə və suvarma suyu ilə təmin edilib.

Artıq sahələrdə becərmə işləri başa çatıb. Min bir zəhmət bahasına bol məhsul yetişdirən pambıqçılar hazırda onun vaxtında və itkisiz yığılmasına başlayıblar. Rayonda pambıq yığımına 1500 nəfərə yaxın işçi qüvvəsi, həmçinin 10 ədəd pambıqyığan kombayn cəlb edilib. Bütün texnikalar, o cümlədən traktor və qoşqular pambıq yığımı üçün hazır vəziyyətə gətirilib. Mütəxəssislərin ilkin hesablamalarına görə, bu il Füzulidə 1600 tondan çox "ağ qızıl" istehsalı nəzərdə tutulub.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Aztəminatlı ailələrin birinci sinif şagirdləri Heydər Əliyev Fondu tərəfindən məktəb ləvazimatları ilə təmin olunacaq

**Heydər Əliyev Fondunun təşəbbüsü ilə aztəminatlı ailələrin 2019-2020-ci tədris ilində birinci sinfə gedən övladlarına məktəb ləvazimatlarından ibarət hədiyyələr veriləcək.**

AZƏRTAC xəbər verir ki, hədiyyələr ünvanlı sosial yardım alan ailələrin birinci sinif şagirdləri üçün nəzərdə tutulub.

Heydər Əliyev Fondunun sifarişi ilə aztəminatlı ailələr üçün hazırlanan hədiyyə



dəsti çanta və gündəlik məktəb ləvazimatlarından ibarətdir və onlar sentyabrın 15-dək qeyd olunan birinci sinif şagirdlərinə çatdırılacaq.

Qeyd edək ki, Fond "Təhsilə dəstək" layihəsi çərçivəsində hər il aztəminatlı ailələrin birinci sinif şagirdlərinə çanta və müxtəlif məktəb ləvazimatları hədiyyə edir.

**AZƏRTAC**

# Sayca iyirminci, keyfiyyətcə birinci məktəb

## *Paytaxtın 20 saylı məktəb-liseyinin kollektivi 2018-2019-cu tədris ilini uğurlu göstəricilərlə başa vurmuşdur*

Qabaqcıl təhsil işçisi, təcrübəli pedaqoq, bacarıqlı rəhbər, maarifçi Səadət Veysova olan yerdə hər zaman uğur, qələbə var... Səadət xanım ziyalı və kübar bir ailənin nümayəndəsi kimi daim öz şərəfli missiyasını vicdanla yerinə yetirməyə çalışır. Onun nailiyyətlərinin səbəbi də budur - Əsilzadəlik!

20 saylı məktəb-liseyin əsası 1958-ci ildə qoyulub. 2007-ci ildə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə məktəb binası əsaslı şəkildə təmir edilib, 2014-cü ildə isə tam sökülərək yenidən tikilib. 15 sentyabr 2017-ci ildə məktəb-liseyin yeni binası istifadəyə verilib. İlk dərs günündə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva açılışda iştirak ediblər. 2017-ci ildə məktəbin direktoru vəzifəsinə Səadət xanım təyin olunduqdan sonra bu təhsil müəssisəsinin yeni dövrü başlanmışdır. Bu gün məktəbdə Azərbaycan və rus bölməsi ilə birlikdə, 123 sinifdə 3819 şagird təhsil alır. Burada 263 müəllim çalışır.



20 saylı məktəb-liseyin kollektivi 2018-2019-cu tədris ilini uğurlu göstəricilərlə başa vurmuşdur. Məktəbin məzunlarından Əliyev Əli Rauf oğlu 579 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquqşünaslıq fakültəsinə, Hüseynli Orxan İlham oğlu 597 balla Azərbaycan Dövlət Neft Akademiyasının İnformasiya Təhlükəsizliyi fakültəsinə, Hüseynli Aslan İlham oğlu 633 balla UFAZ Neft və qaz mühəndisliyi fakültəsinə, Məmmədov Kənan Cavid oğlu 639 balla UFAZ Kompüter elmləri fakültəsinə, Gülalıyev Raul Ramiz oğlu 523 balla Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Neft-qaz mühəndisliyi fakültəsinə, Həşimov Əliəskər Rəşad oğlu 550 balla Bakı Dövlət Universitetinin Tarix fakültəsinə, Məhərrəmov Emin Məhəmməd oğlu 590 balla Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə, Hacıyev Çingiz Zərbəli oğlu 614 balla Azərbaycan Dövlət İqtisad Universitetinin Biznesin idarə olunması fakültəsinə, Hüseynov İslam Zahid oğlu 623 balla Bakı Mühəndislik Universitetinin Kimya mühəndisliyi fakültəsinə qəbul olunmuşlar.

Daha əvvəl respublika üzrə rus dili və ədəbiyyatı olimpiadasında fərqləndiklərinə görə məktəb-liseyin şagirdləri Aytac Rəhimova və Səfurə Qasımova Rusiya Federasiyasının Azərbaycandakı Səfirliyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi və "Rossotrudniçesto"nun Azərbaycan Respublikasındakı nümayəndəliyi tərəfindən "Qalib" diplomu ilə təltif ediliblər.

Martın 17-də Milli Olimpiya Komitəsində 49 məktəb nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə məktəb-lisey "Ayın məktəbi" adına layiq görülmüşdür.

7 "G" sinfinin şagirdi Məryəm Nadirova Gürcüstanın Sulhan-Saba Orbeliani Universitetinin təşkilatçılığı ilə keçirilmiş beynəlxalq "Müasir Amerika nəsr əsərlərinin ifadəli oxunuşu" konfransının iştirakçısı olmuş və sertifikatla təltif edilmişdir.

Mayın 25-də "Valideynin məktəbdə bir günü" layihəsinin növbəti mərhələsi keçirilib, valideynlərə övladlarının təhsil aldığı müəssisə ilə yaxından tanışlıq imkanı yaradılıb, təlim-tədris mühitinin təkmilləşdirilməsi istiqamətində onların rəy, təklif və tövsiyələri dinlənilib, nəticə rəhbərlik və pedaqoji kollektivlə müzakirə olunub.

2018-ci il 5 Oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov A.Hüseynzadə adına 20 nömrəli tam orta məktəb-liseyin direktoru Səadət Veysovanı və məktəbin bir sıra qabaqcıl müəllimlərini "Fəxri fərman"la təltif edib.

A.Hüseynzadə adına 20 saylı tam orta məktəb-liseyin şagirdlərinin idman nailiyyətləri də ürəkaçandır. Bu il iyunun 15-də Milli Qurtuluş Gününə həsr olunmuş yarışda məktəb-liseyin 7-ci sinif şagirdi Abbasova Gülçöhrə, 8-ci sinif şagirdi Abbasov Məhəmməd, 9-cu sinif şagirdi Tairov Səid "Açıq Bakı turniri"ndə qalib gələrək birinci yerə çıxmışlar. Məktəb-liseyin VI "C" sinif şagirdi Atamov Murad "Real Aykido" döyüş növünün texnikalarını nümayiş etdirdiyinə görə IV Kyu - narıncı kəmərə layiq görülmüşdür.

Ötən qış 8 "S" sinif şagirdlərindən ibarət "Real Madrid" və 5 "İ" sinif şagirdlərindən ibarət "Barselona" komandaları arasında yoldaşlıq görüşü keçirilib. Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən təşkil edilmiş 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş "UŞU Sanda" idman növü üzrə Bakı çempionatında 2 "A" sinif şagirdi Nəcəfli Nəcəf qalib gələrək III yerə layiq görülüb.

Məktəb-liseyin şagirdi Kərimbəyli Nuran Vinq Çun Federasiyası tərəfindən təşkil olunmuş I Bakı Çempionatında Tao-lu kateqoriyasında qalib gələrək II yerə çıxıb.

Aprelin 27-də məktəb-liseyin komandası "Şahin" hərbi-idman oyunlarında Bakı üzrə qalib gələrək, birinci yer tutub.

31 may - 4 iyun tarixində Ukraynanın Odessa şəhərində Beynəlxalq karate turniri keçirilib. "Odessa Open" adlanan yarışa qatılan Azərbaycan komandasının tərkibində 20 nömrəli məktəb-liseyin 2 şagirdi də yer alıb. Onlar vətənə medalla qayıdıblar. Rəqiblərinə qalib gələn İlqar Heydərli fəxri kürsünün 1-ci pilləsinə qalxaraq qızıl, Vüqar Heydərli isə gümüş medal qazanıb.

Azərbaycan Respublikası Karate-Do Federasiyaları Assosiasiyası tərəfindən 2018-ci il ərzində Beynəlxalq və Respublika səviyyəli yarışlarda yüksək nailiyyətlər əldə etdiyinə görə məktəb-liseyin şagirdi Ruslan Qasımov "İlin idmançısı" adına layiq görülmüşdür... Göründüyü kimi, 20 saylı məktəb-liseyin uğurları çoxdur və bu siyahını uzatmaq da mümkündür. Yeri düşmüşkən onu da xatırladaq ki, bu il məktəbin direktoru, Əməkdar müəllim Səadət Veysova Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin (1918-2018) yubiley medalı" ilə təltif olunmuşdur. Bundan başqa, Prezident İlham Əliyevin Sərəncamı ilə müəllimlərin əməkhaqqının artırılmasından sonra ölkənin bütün tərəqqipərvər təhsil işçiləri kimi, Bakı şəhər A.Hüseynzadə adına 20 nömrəli tam orta məktəb-liseyin direktoru Səadət Veysova və məktəbin pedaqoji kollektivi də dövlətimizin başçısına səmimqəlbdən öz təşəkkürlərini bildiriblər.

Azərbaycan Respublikası Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsinin birgə tərəfdaşlığı ilə "Olimpiya Mədəniyyəti və Təhsil Proqramı", Avropa Gənclər Olimpiya Festivalının 28 illik tarixində ilk dəfə 2019-cu ildə Azərbaycanda keçirilmişdir. 2019-cu ilin fevral ayından etibarən proqrama cəlb olunmuş ümumtəhsil məktəblərində püşkatma zamanı onlara təhkim olunmuş ölkələrin maddi-mənəvi irsi ilə bağlı mədəni tədbirlər, idman həmrəyliyini təcəssüm etdirən silsilə tədbirlər, idman və intellektual yarışlar, fləşmoblar keçirilmişdir. 20 saylı məktəb-liseyin şagird və müəllim kollektivi proqram çərçivəsində təhkim olunmuş Avropa dövlətlərindən İspaniyanın mədəniyyətini, tarixini, incəsənətini və idman ənənələrini tədqiq edərək müxtəlif tədbirlər vasitəsilə təbliğ etmişdir. "Olimpiya Mədəniyyəti və Təhsil Proqramı"nın həyata keçirilməsində, həmçinin, XV Avropa Gənclər Olimpiya Festivalında yüksək səviyyədə iştirakına, göstərdikləri xidmətlərə və təşəbbüskarlığa görə məktəb rəhbərliyinə, şagird və müəllim kollektivinə Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən təşəkkür elan olunmuşdur.

İnanırıq ki, təcrübəli pedaqoq Səadət Veysovanın rəhbərliyi altında sayca iyirminci, keyfiyyətcə birinci olan məktəb həmişə paytaxtın ümumtəhsil müəssisələri arasında avanqard mövqeyini qoruyub saxlayacaqdır.

**Günay RAUFQIZI.**

## Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Sahələrarası Nəqliyyat və Kompleks Mexaniki Təminat İdarəsi

# AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir**

**Lot 1.** Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Sahələrarası Nəqliyyat və Kompleks Mexaniki Təminat İdarəsinin ərazisində yerləşən obyektlərin əsaslı təmiri işlərinin satınalınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 200 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*Alan bank: Dövlət Xəzinədarlığı Agentliyi,*
*VÖEN: 1401555071,*
*Kod: 210005,*
*M/h: AZ41NABZ01360100000000003944,*
*SWİFT: CTREAZ22*
*Alan təşkilat: Sahələrarası Nəqliyyat və Kompleks Mexaniki Təminat İdarəsi,*
*VÖEN: 3100737211,*
*Hesab : AZ37CTRE00000000000002196602*
*büdcə təsnifatının kodu: 142340, büdcə səviyyəsinin kodu: 7, fond 7,*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;*
*-İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-İddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 25.09.2019-cu il saat 17:00 tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini 02.10.2019-cu il saat 17:00 tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri 03.10.2019-cu il saat 15:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

**Tender Komissiyası.**

## Bakı Nəqliyyat Agentliyi sığorta xidmətlərinin satınalınması məqsədilə

# AÇIQ TENDER ELAN EDİR

**Lot-1.** Daşınmaz əmlakın icbari sığortası
**Lot-2.** Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətinin icbari sığortası
**Lot-3.** Əmlakın (mebel, texnika və avadanlıq) yanğın və digər əlavə risklərdən könüllü sığortası
**Lot-4.** Üçüncü şəxslər qarşısında mülki məsuliyyətin sığortası;
**Lot-5.** Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin könüllü sığortası
**Lot-6.** Avtonəqliyyat vasitələrinin (avtobusların) sahiblərinin mülki məsuliyyətinin icbari sığortasından artıq olan hissəsi üçün avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin könüllü sığortası
**Lot-7.** Avtonəqliyyat vasitəsinə dəymiş zərərin könüllü (Avtokasko) sığortası.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanından (Əlaqələndirici şəxs: Yusifov Azər Fazil oğlu. telefon: 404-41-20 (daxili 2266)) ala bilərlər.

**İştirak haqqı:**
**Lot 1 – 300 manat**
**Lot 2 – 10 manat**
**Lot 3 – 220 manat**
**Lot 4 – 50 manat**
**Lot 5 – 140 manat**
**Lot 6 – 75 manat**
**Lot 7 – 850 manat**

*Bank adı: Dövlət Xəzinədarlığı Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T.BİK: CTREAZ 22*
*Bakı Nəqliyyat Agentliyi*
*Hesab № AZ88CTRE00000000000008147701*
*VÖEN: 1503112971*
*Büdcə təsnifatının kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- İddiaçıların müvafiq xidmətlər üzrə lisenziyaları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 09.10.2019-cu il saat 12:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 18.10.2019-cu il saat 12:00-a qədər Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanında yerləşən Bakı Nəqliyyat Agentliyinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 21.10.2019-cu il tarixdə saat 12:00-da Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanında yerləşən Bakı Nəqliyyat Agentliyində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC-nin zavod və məntəqələrində istifadə olunan bütün modelli kombayn və traktorlarda, avtoyükləyicilərdə, minik və yük avtomobillərində, qoşqularda istifadə olunan şinlərin alınmasına dair 07.06.2019-cu il tarixli ask.gov.az internet saytında dərc edilmiş təkliflər sorğusu prosesində ən aşağı qiymət təklifi edən AZ1053 Azərbaycan Respublikası, Bakı şəhəri, Binəqədi qəsəbəsi, 4-cü Mədən məhəlləsi ünvanında yerləşən "Grand Motors" MMC şirkəti qalib gəlmişdir. Həmin müəssisə ilə 17.07.2019-cu il tarixdə 524883.00 manat məbləğində müqavilə imzalanmışdır.

## BİLDİRİŞ

"Respublika" qəzetinin 15 avqust 2019-cu il tarixli 175 (6502) saylı buraxılışında dərc edilmiş İstehsalat bazasının həyətyanı sahəsinin təmir işlərinin aparılması və Funikulyorda nağdsız ödəniş sisteminin qurulması işlərinin satınalınmasına dair kotirovka sorğusu "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 25.4-cü maddəsinə əsasən müsabiqənin nəticələri ləğv olunmuşdur.

**"Lifttəmir" İstehsalat Birliyinin**
**Tender Komissiyası.**

## BİLDİRİŞ

## Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən Lot 1 - İstehsal vasitələri və avadanlıqlarının alınması ilə bağlı açıq tender elanı

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı:**
**Lot 1: 300 AZN**

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

*Hesab: AZ25CTRE00000000000002598301*
*VÖEN: 1401555071*
*Bank: Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi*
*Kodu: 210005*
*M/H: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T: CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. Podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 27.09.2019-cu il saat 18:00 tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini 08.10.2019-cu il saat 18:00 tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri 09.10.2019-cu il saat 11:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

*E-şərtlər toplusunu 04.09.2019-cu il saat 14:46 tarixindən sonra əldə edə bilərsiniz.*

## AÇIQ TENDER ELANI

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun şərtləri əsasında "Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin yaradılması" işlərinin satınalınması üzrə aşağıdakı lotlardan ibarət açıq tender keçirir:

Lot 1. "Şəhərsalma və tikinti fəaliyyətinin vahid elektron məlumat sisteminin yaradılması";

Lot 2. "Şəhərsalma və tikinti fəaliyyətinin idarədaxili informasiya sistemlərinin yaradılması"

Hər iki lot üzrə tələb olunan işlər müəyyən olunmuş qrafik əsasında 6 ay ərzində hazırlanaraq Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edilməlidir.

Görüləcək işlərin tərkibi və həcmi haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilmişdir.

Tenderdə iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş açıq tenderin əsas şərtlər toplusunu bir lot üçün 500 (beş yüz) AZN məbləğində iştirak haqqını aşağıda qeyd olunmuş hesaba ödədikdən sonra dövlət satınalmalarının vahid internet portalı (PORTAL) vasitəsilə əldə edə bilərlər.

*VÖEN: 1400032621*
*Hesab AZ73CTRE00000000000002278501*
*Bankın rekvizitləri:*
*Adı: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir Hesab № AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T. BİK. CTREAZ22*
*Təsnifat kodu: 142340*
*Səviyyə kodu: 7*

**Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün iddiaçının texniki və maliyyə imkanlarının, işçi qüvvəsi və onların peşəkarlığının, idarəetmə səriştəsinin, satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması, vergi və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması, müflis elan olunmaması, əmlakı üzərində həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması tələb olunur.

Lot 1 üzrə: Müvafiq sahədə beş ildən artıq iş təcrübəsinin, ölkədaxili kadastr informasiya sistemlərinin yaradılması və tətbiq edilməsi və EB üzərindən Korporativ Coğrafi Məlumat Sistemlərinin hazırlanması sahəsində iş təcrübəsinin və son beş ildə azı bir analoji işi yerinə yetirmiş olmasına üstünlük verilir.

Lot 2 üzrə: Müvafiq sahədə iki ildən artıq iş təcrübəsinin, maliyyə hesabatı və təchizat, insan resurslarının idarə edilməsi, elektron arxiv və elektron sənəd dövriyyəsi modullarının tətbiqi sahəsində iş təcrübəsinin və son iki ildə azı bir analoji işi yerinə yetirmiş olmasına üstünlük verilir.

Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər 23 sentyabr 2019-cu il tarixində yerli vaxtla saat 18:00-dək aşağıda qeyd edilmiş sənədləri PORTAL vasitəsilə və kağız daşıyıcıda Komitəyə təqdim etməlidirlər:

*1. tenderdə iştirak etmək üçün ərizə;*
*2. iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi (əsli);*
*3. iştirakçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4. iştirakçının son bir ildəki maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*5. iştirakçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*6. iştirakçının vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmamasına dair müvafiq rayon vergilər idarəsi tərəfindən verilmiş arayış;*
*7. müflis elan olunmaması, əmlakı üzərində həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış.*

İddiaçılar 03 oktyabr 2019-cu il tarixində yerli vaxtla saat 18:00-dək:

1. texniki və maliyyə təkliflərindən ibarət tender təklifini (qüvvədə olma müddəti zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü olmalıdır);

2. tender təklifi qiymətinin 1 %-i həcmində bank təminatını (qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır) PORTAL vasitəsilə, eyni zamanda əsli və surəti olmaqla imzalanmış və möhürlənmiş ikiqat zərfdə Bakı şəhəri, Füzuli küçəsi, 65 ünvanında yerləşən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim etməlidirlər.

İddiaçı öz tender təklifində satınalma müqaviləsi ilə əlaqədar tətbiq olunacaq bütün növ vergilər və digər ödənişləri (ƏDV daxil olmaqla) nəzərə almalıdır.

İddiaçılar bu tenderin əsas şərtlər toplusunda göstərilmiş keyfiyyət və qiymət seçim üsuluna (KQS) əsasən seçiləcəkdir. İddiaçıların təklifinin qiymətləndirilməsi zamanı satınalan təşkilat yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların (işlərin və xidmətlərin) təklif edilən qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edəcəkdir.

İddiaçıların tender təklifləri olan zərflərin açılışı 04 oktyabr 2019-cu il tarixində yerli vaxtla saat 16:00-da Bakı şəhəri, Füzuli küçəsi, 65 ünvanında, Komitənin iclas zalında Tender komissiyasının iclasında PORTAL üzərindən keçiriləcəkdir.

İddiaçılar açılışın nəticələri ilə PORTAL vasitəsilə tanış ola bilərlər.

Əlavə məlumat almaq üçün (012) 493-34-67 (daxili 182) nömrəli telefonla əlaqələndirici şəxs Elçin Kazımlıya müraciət oluna bilər.

**Tender Komissiyası.**

## Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Qobustan Bölgə Təcürbə Stansiyası 2019-cu ildə aşağıda göstərilən xərclər üzrə

# KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Kənd təsərrüfatı texnikası və avtonəqliyyat üçün lazım olan ehtiyat hissələri

QEYD: Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 11 sentyabr 2019-cu il saat 15:00 tarixədək qəbul olunur.

**Əlaqələndirici şəxs:** *Nuriyev M.*
**Tel.:** *050 531 18 79*
**Ünvan:** *AZ3700, Qobustan rayonu, Qobustan Bölgə Təcürbə Stansiyası*

**Kotirovka Komissiyası.**

Hüseynova Zümrüd Məmmədəli qızına verilən Nizami rayonu, Aşıq Ələsgər küçəsi 12-də olan fərdi yaşayış evinin çıxarışı və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Beyləqan rayonu, Kəbirli kənd sakini Vəlişov Adil Saday oğlunun mülkiyyətində olan həmin kənddə yerləşən fərdi yaşayış evinə verilmiş (inventar nömrəsi 93, qeydiyyat nömrəsi 4/1-93) texniki pasport və qeydiyyat vəsiqəsi, həyətyanı sahəyə verilmiş torpağın mülkiyyətə verilməsinə dair JN 596A, KOD 60707018 olan şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

DƏDRX-nin Xaçmaz Ərazi İdarəsi tərəfindən Mütəllimova Tamara Əlislam qızının adına verilmiş çıxarış (Rey-304013004443) və texniki pasport itdiyi üçün etibarsız sayılır.

DƏDRX-nin Xaçmaz Ərazi İdarəsi tərəfindən Əkbərov Zəbi Əlbala oğlunun adına verilmiş çıxarış (Rey-304013000314) və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 16 may 1998-ci il tarixli 9 nömrəli qərarı ilə Şağlaser kənd sakini Fərəcov Nayib Novruz oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 100; KOD 80224018) itdiyi üçün etibarsız sayılır.

Qusar rayonu, Kuzun kənd sakini Tayibov Möhübəli Qocabəy oğlunun adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN: 0009, kod: 30113013) itdiyi üçün etibarsız sayılır.

Teymur Oruc oğlu Salamova məxsus MV seriyalı 1366 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Xaçmaz rayonu, Xaspoladoba kənd sakini, mərhum Mədinov Şakir Süleyman oğlunun adına verilmiş evin 347 nömrəli Texniki pasportu (kupçi) itdiyi üçün etibarsız sayılır.

TƏKRAR

## "Azəralüminium" MMC

# AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender bir (lot) lot üzrə keçirilir:**
**LOT-1. 1300 TON Alüminium Flüorid ($AlF_3$)**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıdakı hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Gəncə şəhəri, Yevlax şosesi 53 ünvanından ala bilərlər.

**Əlaqə telefonu: (+99450) 2731345**
**Əlaqələndirici şəxs: Sofiya Aşirova**
**E-mail: sofiya.ashirova@azeraluminium.com**
**Tenderdə iştirak haqqı: 200 (iki yüz) manat**

*Rekvizitlər:*
*VÖEN: 1305481501*
*Bank: "Azərbaycan Beynəlxalq Bankı "Gəncə" filialı*
*Kod: 509352*
*VÖEN: 9900001881*
*M/h: AZ03NABZ01350100000000002944*
*S.W.İ.F.T. BİK:İBAZAZ2X*
*İBAN: AZ36İBAZ40040019446110810255 AZN*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*- malların təhvil verilmə qrafiki;*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanların tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və malların təchiz olunma qrafiki istisna olmaqla) 27 sentyabr 2019-cu il saat 17:00-a qədər, malların təchiz olunma qrafiki, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 4 oktyabr 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 7 oktyabr 2019-cu il saat 12:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

TƏKRAR

## Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

**LOT-1.** EHS, EAMS və EAS üzrə təkmilləşdirmə və proseslərin optimallaşdırılması, təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, informasiya sistemlərinə, o cümlədən elektron sənəd dövriyyəsi sisteminə, şəbəkə və avadanlıqlara texniki dəstək xidmətinin göstərilməsi, kağız əsaslı arxiv sənədlərinin rəqəmsallaşdırılması, indeksləşdirilməsi və EAS-a daxil edilməsi üzrə malların, işlərin və xidmətlərin satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, www.e-tender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsahibə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 300 AZN**

*Bank rekvizitləri:*
*Hesab: AZ66CTRE00000000000002447601*
*VÖEN: 1401555071*
*Bank: Dövlət Xəzinədarlığı Agentliyi*
*Büdcə təsnifatının kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7, fond 7*
*Kodu: 210005*
*M/H: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T: CTREAZ22*
*Alan təşkilat: Azərbaycan Resbublikası Milli Arxiv İdarəsi, VÖEN: 1000469951*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*2. Tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*6. İddiaçının son bir il ərzində maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;*
*7. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, mənfəət vergisinin bəyannaməsi;*
*8. İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatı.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə Satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 17 sentyabr 2019-cu il saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatı sənədlərini 23 sentyabr 2019-cu il saat 17:00 tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri 24 sentyabr 2019-cu il saat 16:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

**Tender Komissiyası.**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

## ALLAH RƏHMƏT ELƏSİN

**"Respublika" qəzetinin baş redaktoru, professor Teymur Əhmədov və redaksiyanın kollektivi DİN Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalova, əzizi**
**FƏRİD MƏMMƏDOVUN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

**Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi Abel Məhərrəmova, əzizi**
**AZƏR SADIQOVUN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

---

**Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli və institutun kollektivi XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aytən Rüstəmzadənin həyat yoldaşı**
**NİZAMİ ƏLƏKBƏROVUN**
**vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**

---

**Bakı Tikinti və şəhərin inkişafı şirkətinin kollektivi və Cəlal Qurbanov dostları**
**ZÜLFÜQAR ALLAHQULUYEVİN**
**vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə, oğlanları Süleymana, Vüqara, bacanağı Zöhrab Salmanova dərin hüznlə başsağlığı verirlər.**

---

**Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi Ramiz Zeynalova, əzizi**
**FƏRİD MƏMMƏDOVUN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.




● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Əli SADIQOV
● Çapa imzalanmışdır
04.09.2019